*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 305-309*

https://doi.org/10.62837/2025.2.305

**NAMİQ HADİ**
**e-mail:** axmedoglu@gmail.com

# QORQUD QURAN HİKMƏTİNİN MƏHƏMMƏD FÜZULİ QƏZƏLİNDƏ ANILMASI

**Annotasiya.**
Bütün dini-fəlsəfi məslək sahiblərində ən uca istək Haqqı tanımaqdır. Bunun üçün təkcə ağıl və məntiq yetərli deyil. Nəfs və qəlb öncə paklanmalı, bəşər batini işıqlanma və mənəvi-ruhi kamillik tapmalıdır. Çünki qəlbin gördükləri yəqinlikdir, həqiqət nurunun pərdədən çıxaraq aşkar olmasıdır. Bu işıq məntiqi dəlil ilə deyil, batini işıqla aşkarlanır. Nəfsin isə təkamülə ehtiyacı və qabiliyyəti vardır ki, son mərhələdə onun ilhai nurla Ağ üzdə – Oğuzda işıqlanması qəlbləri birləşdirə və qəlb haqqı əks etdirən ayna mələk ola.

**Açar sözlər:** Quran, nur, “Kitabi-Dədə Qorqud”, yazı, eşq.

**Namiq Hadi**

## The Wisdom of the Quran in Muhammad Fuzuli’s Ghazal about Qorqud

E-mail: axmedoglu@gmail.com

**Abstract.** The highest aspiration of all religious-philosophical doctrines is the recognition of Truth (Haqq). For this, reason and logic alone are not sufficient. The soul (nafs) and the heart must first be purified, and the inner essence of a person must be illuminated and attain spiritual and moral perfection. This is because the clarity of the heart lies in revealing the light of truth by removing the veil. This light is not a logical proof; it is manifested through inner enlightenment. The soul has the need and ability to achieve perfection so that, in the final stage, its divine light merges with the illumination of hearts in Oghuz, and the heart becomes an angel serving the Truth.

**Keywords:** Quran, light, “Kitabi-Dede Qorqud”, writing, love.

## Giriş / Introduction

Tanrı Quranda “Məni yad edin ki, Mən də sizi yad edim” – demişdir. Kökü bir olan həqiqətin mahiyyətinə kəsrət aləminin gözəllikləri ilə hasar çəkmiş dünyanın fitnə gözü ağılları zahiri aləmə yönəltməklə ruhun ilahi kamal sorağı ilə cism aləmindən qurtuluşunu və qeyb aləminə uçuşunu ləngidir. Haqqın kəramindən qaynaqlanan feyzindən onu məhrum etdirmək istər. Maddi aləmin qaranlığında onu qəflət yuxusuna düçar etdirər.

## Əsas hissə / Main part

Mövlana Füzulinin “Əyn” qafiyəsində aşağıdakı qəzəlində Fatihə surəsi ilə yeddi pilləli kainat qatında nəfsin naqislikdən kamala doğru yüksəlişi önə çəkilir. İnsanda kamala yetişmək istedadı vardır. Bu qəzəl nəfs üzərində ruhun fəthidir.

**Bismillahir-rəhmanir-rəhim**

İlk beyt belədir:

İstədim mərhəm oxundan cigərim yarəsinə,
Atdı min ox ki, dəgər hər biri bir parəsinə.

Yəni pərakəndə hissələrdən birləşən qəlbdə Haqqın görüm sifəti Dəli Domrul görklü Çeşmi-Türk adi bəşər üçün dərkedilməz olduğundan o həmişə Haqqın bəsirətindən, görüm istedadından xəstə və xarab olur. Çeşm ərəbcə “əyn” adlanır və bir növ eynül-yəqin məqamı kimi qəbul edilir. Batildən Haqqa doğru mənəvi seyrdə Əzəli və əbədi varlıq olan Haqqa vurulmaq istəyən arifə əvvəl zahiri aləmdə onun min adına – əlamətlərinə vurulması fərz olunur. Haqqın özü isə heç bir nişan və əlamətə malik deyil. Bu hal İlahi tərəfindən salikin təqsirinin başqasından pərdələnməsi, görməzlik xüsusiyyətidir. Lakin həmin təqsir Salikin öz diqqətinə Haqdan dəlillər vasitəsilə çatdırılır. Haqqın mütləq vücudu qeyb aləminə xasdır. Burada heç bir ad və sifətə yer yoxdur. Bu ona görə edilir ki, salik öz təqsirini anlasın və bir də dəlilə ehtiyac duymadan Tanrı birliyinə şəhadət gətirsin, Haqqı Haqq ilə tanısın. Bu bir növ Haqqın bəndəyə olan inayətidir. Həmin rəmz Çeşmi-ahuvanə şəklində işlənilir və İlhi tərəfindən aşiqin öz cəhlinə görə tənbeh edilməsi demək-dir. Qəlb çırağı və mərifətlə:

Əyan eynəl-yəqin oldu liqayi-hüsni-dust,
Hər kimin Həqq gözün açdı, gördü didari-Xuda.

**Həmd olsun aləmlərin Rəbbinə!**

Bir-birilə çəkişir gərdi-rəhinçün müjələr,
Gör nə qanlar düşəcəkdir onların arəsinə.

Bu, tövbə məqamıdır. Haqq yolunda ruhi həyatın, gözəl əxlaqi-mənəvi dəyərlərin yaşamı və davamı üçün pis əxlaqın yoxluğa düçar edilməsi Tanrının nəzəri olan müjə rəmzi ilə salikin fənasına işarədir. Bəndə öz nəfsinin danlaqdan qurtulması ilə fənaya, yəni bəşəri sifətinin fənasına nail olur. **Ey bu dünyada hamıya mərhəmətli, axirətdə isə ancaq möminlərə rəhimli olan!**

Çəkməz oldu könül oxlar yükün, ol sərv məgər
Çəkərək atə oxun, rəhm edə biçarəsinə.

Bu məqamda üzəri nur-zülmət qarışıq pərdə ilə örtülü nəfs səxavət, qənaət, təvazökarlıq, tövbə, səbr və dözümlülük keyfiyyəti aşılayan mütləq varlığa – Haqqa vurulur. Ruh nəfsin günahlarını yadda saxlar və nəfs ayılarkən öz günahlarından utanar və onu bürüyən qəmin haradan gəldiyini bilməz. Tanrı insanın qəlbinə Qorqud Ata derlər vicdan vaizi təyin edər, sədası onu oyadıb həqiqətə yönəldər. O, Haqq ilə xilqət arasında əlaqə yaradan bədən hicabında iki məqam: günahla savab arasında ilişib qalaraq qəflət yuxusuna düçar edilmiş insana Haqqı tanımağı və ona əməl etməyi, batili tanımağı və ondan çəkinməyi öyrədən Səba yeli oldu. Şeyx Nizami demiş: Sən elə bir səfərdəsən ki, onun yolu azadlıqdır.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 305-309*

Qanı göz yaşı kimi əhli-nəzər kim, yügürüb
Bir içim su verə dəşti-ğəmin avarəsinə.

**Haqq-hesab gününün sahibindən** təvəkkül, şükr, riza keyfiyyətini Buğra görklü xeyirxahlığı ilə əldə edən Buğac, ondan qaçan Buğa görklü cəhalət dənizinin başını Ərşdə kəsməklə Tanrının ədalətini taxta çıxaran insandır. Onun vücudunda olan ilahi həqiqətə – insan gözəlliyini Tanrı gözəlliyinin məzhərinə yetişdirən Qantura gözün açdı, Yer öpdü, aydır: "Amənna və səddəqna". Yəni qeybi həqiqətləri eşitdik və inandıq. Məqsudumuz Haqq-təala dərgahında hasil oldu – deyib Qara donlu kafirə at saldı. Haqq yolçusu qəlbinin bütün ruhi gücü ilə nəfs qoşunu kafəri doğramasa peyğəmbər nuru Haqqı yada salmaq üçün batini aləmə işıq saçmaz. Bunun nəticəsində Qazılıq Qoca görklü təcəlli nuru zülmətə üstünlük gəlir və həqiqəti eyni olduğu kimi aşkarlayır. Bu işıq məntiqi dəlil Əmən görklü ilə deyil, batini işıq Yeynəklə aşkarlanır. **Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik** – deyə Bayandur xanın nəzərinə varan da bu rəhmət ayətidir, mənəvi kamillik baxımından Haqqın adına işarədir.

Hər tərəf əkslərimdir görünən, ya yığılıb
Gəldi su xəlqi sirişkim suyu nəzzarəsinə.

Haqqın qarşısında bütün kainat ayna kimidir, Onun nişanələrini əks etdirir. Lakin cilalanmış ən mükəmməl ayna insandır. Bu, heyrət məqamıdır ki, bəndə ilə Haqq arasında ünsiyyət yaradan Haqqın nidasını gətirdi. Haqqın nidasını eşitməyə qabil olmaq gərəkdir ki, nəfsin yaddaşı insanın və ürəyin hərəkət yönümünü müəyyən edən məqsəd, niyyət olsun. İlahi sirlərin dərkinə rəvac verən rəhmət yağmuru sirişk Haqqın camal və rübubiyyət nurunun yağmasına işarədir. Bu isə ariflərin ürəyinə həyat və təzəlik bəxş edir. Haqqn hər yerdə hazır olmasına əlamətləri şahidlik edir. "Qədrəytül-Həqqə Fi Külli məqami" ifadəsi "Haqq olan Allahın vəchini sudan yaradılışda hər yerdə gördüm" anlamına gəlir. Aləmlər adı görklü Məhəmməd Mustafa üzü suyu hörmətinə xəlq edildi. Çünki paklıq, təravət və həyat qaynağı, arifin qəlbində yaranan mərifət və ilahi feyz çeşməsi Odur. İbnül-Ərəbi elmül-yəqin məqamını su ilə müqayisə edir. Çünki bəşər düşüncəsi bilgi ilə durur. "İnsan olan hansı səmtə yönəlsə, Haqqın üzün görəcək" (Bəqərə, 115). Həqiqətlərin aşkar olduğu bu məqama insan övladı zikr, ixlas, riyazət keyfiyyətləri ilə nail olur. Bu hal təsəvvüfdə kəşf adlanır. Bu yolda ilahi adların təcəllisindən doğan surətlərin Su yaradılışında Su xalqına aşkar edilməsi Tanrı birliyinə inam yaradan qəlbələrin birləşdirilməsi ilə ağlabatan oldu. **Bizi doğru yola yönəlt!**

Bilməzəm kim, nəzər əhli nəyini əksildər,
Ğəzəb eylər nəzər etsəm məhi-rüxsarəsinə.

Kainatın surəti sayılan insanın təkamülündə mərifət nuru ilə işıqlanan Bu Ürəkdə (Beyrəkdə) Haqq sevgisi ilə insaniyyət gerçəkləşir, bütün kamal sifətlər son nöqtədə cəmlənir. Seyid Əzim demiş:

Xəlqi-insanda nə surət, nə həyula, Seyyid,
Nüqteyi-müxtəfiyi-sirri-süveydadı qərəz.

Yəni Adəmin ürəyindəki bu sevda nöqtəsindən qərəz mömin bəndənin ürəyində Haqq sevgisi oyatmaqdır. Möhtəşəm partlayışa və bununla kainatın Tanrının lütf və ehsanı ilə dolu olmasına səbəb olacaq bu nöqtə Arximedin də istinad nöqtəsidir.

Bütün surətlərdəki səcdə nişanələrində cilvələnən və hər bir varlıq təzahüründə təcəlli edən Odur. Nəzər qəldən doğan mənəvi bir baxışdır. Nəzər iki cürdür: birincisi özünə, ikincisi Haqqa doğru yönələn nəzərdir. Haqqın substansiyası nəzər qaynağıdır. Üz Tanrı gözəlliyinin məzhəri sayılır. Haqqın adları da üzdə zahir olur. Rüxsar qeyb aləminin zahiri aləmdə şahidi kimi tanınır deyə Haqq yolçusu zahirdə Xəti-Xudaya – xətaya üz tutduğuna görə nəzər əhlinin qəzəbinə tuş gəlir.İç Oğuza Daş Oğuz ədavət bağladılar. Quranın “Həcc” surəsi xatırladır ki, “Haqq yolçusu təmiz sözə – “La ilahə illəllaha” müvəffəq olmuş, həm də Allahın bəyəndiyi yola yönəlmişlər”. **Nemət verdiyi kəslərin yoluna! Qəzəbə düçar olmuşların və azmışların yox!** Təfəkkür önə çəkiləndə aydınlıq yüksəlir.

Ey Füzuli, cigərim qanını qoymaz tökülə,
Can fəda ol sənəmin ğəmzeyi-xünxarəsinə.

Sənəm dedikdə mütləq varlığın məzhərini nəzərdə tutmuşlar. Sənəm – yar, sevgili mənasında işlənir. Ondan təcəlli nuru almış ürək canı sevgili yar yolunda Mina dağında qurban verər ki, əmmarə nəfsin Adəm övladında yaratdığı haram qanı ondan aparmaqla halalzadə insan övladının qanının tökülməsinə razı olmaz. Qəmzə gözün qapanıb-açılması ilə yaranan işvə-nazdır. Lahici Şeyx Mahmud Şəbüstərinin “Gülşəni-raz” əsərinə yazdığı şərhdə qəmzəni belə izah edir: Gözü qapamaq iltifat göstərməmək deməkdir. Bu isə KDQ-da Qəzanın xanı Qazan xanda Haqqın calal (qəhr) sifətindən doğan kirişmə, naz deməkdir. O, varlığı qarət edər. Göz açmaq isə Haqqın Aruzda camal (lütf) sifəti olaraq niyaz və şəfqət rəmzidir, yenidən dirilik və həyat yaradar. Maddi varlığın özünü tanıyan Basatla fənası insana yüksəliş ruhu verər, onu Haqqın hüsnünə malik edər. Calal və camalın təsirindən qorxu və ümid yaranar, hər bir qəmzə aşiqin sevgi dolu ürəyini ovlayan tələ sayılar. Eşq rəmzi olan bu kimyayi-səadət, əxlaqi paklıq və nəfsi saflıq insanı kamal və fəzilətlə zənginləşdirən feyz qaynağıdır, ürəyin dünya meylindən azad olmasıdır.

## Nəticə /Conclusion

Qurandan gələn Fəzlüllah anlamı Tanrının axirətdə bağışlayacağı lütf və ehsandır. Fəzilət bəşərin müsbət əxalqi-mənəvi və əqli dəyəridir. Bu məqam nəfs üzərində “Fəth” adlanır. Vilayət məqamının bəndəyə açılışı və ilahi adlardan doğan nurun xilqətdə zahir olmasıdır, vəlilikdir. Vəli Allahın təmiz və pak bəndəsidir, dostudur. Allah bəndəsini sevərsə, onun görən gözü, eşidən qulağı, tutan əli olur. Vəli Tanrının inayəti ilə qorunar. Kitabi-Dədə Qorqud ilahi hikmət elminin bir zərrə hüsnüdür,

bütün aləm Tanrının kitabı kimidir. Kamil insan da qeybi həqiqətlərin yazılmış olduğu bu kitabla müqayisə edilir.

## Ədəbiyyat /References

1. Məhəmməd Mövlazadə Şəkəvi. Kitabül-Bəyan fi təfsiril-Quran. Bakı: 2001
2. Kitabi-Dədə Qorqud. Bakı: 1962.
3. Şərq mütəfəkkirlərindən seçmələr. Bakı: 2007.
4. Ziya Bünyadov, Rafiq Əliyev. İslam, tarix, fəlsəfə, ibadətlər. Bakı: 1994.

## Мудрость Корана в газели Мухаммеда Физули о Коркуде

**Намиг Хади**
e-mail: axmedoglu@gmail.com

**Аннотация.**

Высшее стремление всех религиозно-философских учений — познание Истины (Хакк). Для этого недостаточно лишь разума и логики. Душа (нафс) и сердце должны быть очищены, а внутренняя сущность человека — просветлена и достичь духовно-нравственного совершенства. Ведь ясность сердца заключается в том, чтобы свет истины становился явным, устраняя завесу. Этот свет не является логическим доказательством, он раскрывается через внутреннее озарение. Душа нуждается в совершенствовании и обладает способностью к этому, так что в конечном этапе её божественный свет объединяется с просветлением сердец в Огузе, и сердце становится ангелом, служащим Истине.

**Ключевые слова:** Коран, свет, «Китаби-Деде Коркуд», письмо, любовь.

**Rəyçi: filologiya elmləri doktoru, Sərxan Xavəri**